Rauf Məmmədov, Rahib Məmmədov, Abuzər Məmmədov müvafiq qaydada həyata keçirilsin 25.09.2014

**İctimai Səhiyyə və İslahatlar**
**Mərkəzinin direktoru**
**cənab Ceyhun Məmmədova**

# MƏLUMAT

Səhiyyə Nazirliyinin 02.09.2014-cü il tarixli 87 nömrəli əmri ilə təsdiq edilmiş "Ana və uşaqların sağlamlığının yaxşılaşdırılmasına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planının 7.1. bəndinin icrası ilə bağlı İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən reproduktiv sağlamlıq, o cümlədən abortların qadınların reproduktiv sağlamlığına mənfi təsiri barədə ictimai maarifləndirmə işinin aparılması üçün həmin mövzulara dair maarifləndirici çap materiallarının və video çarxların hazırlanması məqsədəuyğun hesab edilir.

Qeyd olunanları nəzərə alaraq, İSİM tərəfindən 2014-cü ilin sonunadək reproduktiv sağlamlıq mövzusunda 2 növ (-reproduktiv sağlamlıq (5000 ədəd); -abortlar (5000 ədəd)) bukletin və 1 növ plakatın (1000 ədəd) hazırlanması, eləcə də reproduktiv sağlamlığın mahiyyəti və qorunması yolları üzrə bir 30-saniyəlik sosial videoçarxın çəkilişi, həmin maarifləndirici çap materiallarının əhali arasında paylanması və təhsil ocaqlarında reproduktiv sağlamlıq mövzüsunda maarifləndirici mühazirələr zamanı istifadə olunması təklif olunur.

Yuxarıda qeyd edilən işlərin yerinə yetirilməsi məqsədi ilə müvafiq göstəriş verməyinizi Sizdən xahiş edirəm.

**Səhiyyə Siyasəti və İslahatlar**
**şöbəsinin müdiri** **Töhfə Cəmilova**

23.09.2014